COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

**Şərq Tərəfdaşlığı ölkələrində Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı çərçivəsində onlayn tədbir: Daha yaxşı idarəçilik vasitəsilə vətəndaşların həyatının yaxşılaşdırılması**

# Avropa Şurası Baş Katibi Marija Pejčinović Burić-in öncədən video yazıya alınmış müraciəti



Əziz dostlar,

Builki bir çox tədbirlər kimi, bu tədbir də gözlənildiyindən bir qədər gec baş tutur və fiziki iştirak ilə deyil, onlayn baş verir.

Bunlar bugünkü dünyanın reallıqlarıdır.

Ancaq önəmli olan bu tədbirin baş tutması, bununla da Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramının Şərq Tərəfdaşlığı ölkələrinin vətəndaşlarına necə fayda gətirməyə davam etdiyini - hətta bu çətin dövrlərdə belə daha çox nələr edə biləcəyimiz barədə düşünməyə imkan verməsidir.

Bu mühümdür, çünki COVID-19 pandemiyası faciəvi şəkildə həyat itkisi ilə nəticələnsə də, onun həyat tərzimizi məhv etməsinin qarşısını almalıyıq:

Kim olduğumuz, nəyə dəyər verdiyimiz və hər bir avropalının haqqı çatan hüquqlar barədə anlamalı.

Avropa İttifaqı və Avropa Şurası insan hüquqları, demokratiya və qanunun aliliyinə ümumi inamı paylaşır.

Bu səbəbdən, biz, Şərq Tərəfdaşlığı ölkələri ilə bənzərsiz, çoxsahəli, çoxillik və çox ölkəni əhatə edən bir proqram həyata keçirmək üçün birlikdə çalışa bilmişik:

Milli qanunvericiliyin və təcrübənin Avropa standartlarına daha da uyğunlaşdırılmasına və milli hökumət orqanlarının daxili islahatları həyata keçirmək potensialının artırılmasına kömək edən Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq.

Bu işin hazırkı, ikinci mərhələsi spesifik sahələr üzərində cəmləşmişdir:

Məhkəmə islahatı, ayrı-seçkiliyə, korrupsiyaya qarşı mübarizə və çirkli pulların yuyulmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması.

Bu fəaliyyətin arxasında 17,5 milyon avro büdcə dayanır ki, bunun 80% -i Avropa İttifaqı, 20% -i isə Avropa Şurası tərəfindən maliyyələşdirilir.

Proqramın fəaliyyəti həm Avropa Şurasının Şərq Tərəfdaşlığı ölkələri üzrə Fəaliyyət Planlarının, həm də Avropa İttifaqının 2020-ci il üçün nəzərdə tutulmuş nəticələrinin əldə edilməsinə ciddi töhfə verir.

Ancaq bunun əhəmiyyəti, gündəlik həyatını yaşayan insanlar üçün nə məna kəsb etməsindədir.

Birgə ərsəyə gətirdiyimiz iş nəzərəçarpan nəticələr verir, vətəndaşların ehtiyac duyduğu sahələrdə daha səmərəli və təsirli xidmətləri təmin edir, bu isə öz növbəsində onların dövlət qurumlarına olan inamını artırır.

Bu səbəbdən də ayrı-ayrı ölkələr, COVID-19 böhranı dövründə davam edən milli islahatlar da daxil olmaqla, aldıqları dəstəkdən məmnun olduqlarını ifadə ediblər.

Bu, həm də Avropa Şurasının may ayında Şərq Tərəfdaşlığına "yenilənmiş və gücləndirilmiş öhdəlik" çağırışı etməsinin səbəbi idi.

Bununla belə, onlar qanunun aliliyinin təmin edilməsi üçün daha çox irəliləyişə ehtiyac olduğunu qeyd ediblər.

Bilirəm ki, biz, birlikdə buna nail ola bilərik.

Bu tədbir, atılmış addımlar barədə və hətta qeyri-müəyyənlik və çətinliklər zamanı belə, daha çox nələr edə biləcəyimiz barədə düşünməyə imkan verir.

Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramının indiki mərhələsi 2021-ci ilə qədər davam edəcək.

Beləliklə, bu vaxt çərçivəsində və ondan sonrakı müddətdə necə daha çox işlər görə biləcəyimizi nəzərdən keçirməyinizdə sizə ən yaxşısını diləyirəm.